Əziz xanımlar, bayramınız mübarək!

09 (1264) 7-15 mart 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK



*Hörmətli xanımlar!*

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan qadınları milli varlığımızı özündə əks etdirən mədəni dəyərlərimizin əsrlərdən bəri bir bütöv halında qorunub saxlanılmasında misilsiz xidmətlər göstərmiş və həmişə cəmiyyətimizin etibarlı mənəvi dayağı olmuşlar. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, onlar milli dövlət quruculuğu işinin fəal iştirakçıları kimi ölkəmizin sosial-iqtisadi, mədəni və elmi potensialının artırılması üçün qüvvələrini əsirgəmədən tarixim izdə dərin iz qoyan fədakar, mübariz və məğrur sələflərindən aldıqları tükənməz mənəvi güc sayəsində bütün sınaqları dəf etmiş, öhdələrinə düşən vəzifələri şərəflə yerinə yetirmişlər.

Azərbaycan qadını mərdlik və mətanət nümayiş etdirərək, dualarla cəbhəyə göndərib qələbə xəbəri ilə yolunu gözlədikləri və yurdumuzun hər qarışını canından əziz bilən bir nəsil yetişdirmişdir. Dövlətçiliyimizə ən böyük töhfə də, heç şübhəsiz, qırx dörd günlük müqəddəs Vətən müharibəsindəki qəhrəmanlığı və şücaəti əsla yaddaşlardan silinməyəcək bu gənc nəsildir. Gözünü açıb Azərbaycanı azad və müstəqil görmüş həmin rəşadətli nəsildir ki, ümidləri doğruldaraq ədalətin bərpa edilməsində, uzun həsrətdən sonra Qarabağın Ana Vətənə qovuşmasında və məğrur xalqımıza hüdudsuz Zəfər sevincinin yaşadılmasında müstəsna payı vardır.

Mən torpaqlarımızın müdafiəsi zamanı canından keçmiş igid oğullarımızın xatirəsini bir daha ehtiramla yad edir, şəhid anaları və xanımlarına, döyüşlərdə sağlamlığını itirmiş hərbçilərimizin ömür-gün yoldaşlarına, Vətənimiz üçün layiqli övladlar böyüdən əsgər analarına ən xoş arzularımı çatdırıram.

İnanıram ki, qurub-yaratmaq əzmi və sosial-mədəni fəallığı ilə seçilən zəngin mənəviyyatlı Azərbaycan qadını cəmiyyətimizin həyatına bundan sonra da yüksək dəyərlər qazandıracaq, bizi qarşıda gözləyən nəhəng quruculuq dövründəki nailiyyətləri ilə müstəqillik salnaməmizə yeni parlaq səhifələr yazacaqdır.

**Dərin hörmətlə,**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 6 mart 2021-ci il**

## QOŞULMAMA HƏRƏKATI YENİ DÜNYA DÜZƏNİNİN YENİDƏN FORMALAŞMASINDA FƏAL İŞTİRAK ETMƏLİDİR




"Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir".

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Prezidenti İlham Əliyev martın 2-də Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə çıxışında bildirib.

## AZƏRBAYCAN QOŞULMAMA HƏRƏKATININ İNSTİTUSİONAL İNKİŞAFINA GÜCLÜ DƏSTƏK VERİR

"Azərbaycan Qoşulmama Hərəkatının institusional inkişafına güclü dəstək verir". AZƏRTAC xəbər verir ki, bu sözləri martın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə çıxışında bildirib.

Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradıldığını vurğulayan dövlətimizin başçısı deyib: "Məqsədimiz institusional davamlılıq yaratmaq və Azərbaycandan sonra sədrliyi təhvil alacaq üzvlərə uğurlu miras qoymaqdır".

## BİZ YENİ ŞƏHƏR VƏ KƏNDLƏRİ SIFIRDAN YARADIRIQ

"Azərbaycan hökuməti işğaldan azad olunmuş ərazilərdə 2021-2022-ci illərdə yenidənqurma işlərinə 4 milyard ABŞ dollarına yaxın pul xərcləyib".

Bunu martın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə çıxışında söyləyib.

Bu il bu məqsəd üçün ən azı 1,7 milyard ABŞ dolları məbləğində vəsaitin ayrılmasının planlaşdırıldığını vurğulayan dövlət başçısı deyib: "Biz müasir şəhərsalma - "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarından istifadə edərək yeni şəhər və kəndləri sıfırdan yaradırıq. Bu, milli hökumətlər tərəfindən postmünaqişə dövründə icra olunan nadir və daha öncə görünməmiş bir inkişaf, yenidənqurma modelidir.

## "FRANSANI QANLI MÜSTƏMLƏKƏ CİNAYƏTLƏRİNƏ, SOYQIRIMI AKTLARINA GÖRƏ ÜZR İSTƏMƏYƏ ÇAĞIRIRIQ"

Bu sözləri martın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə çıxışında bildirib.




Qoşulmama Hərəkatı Qəmər Adaları İttifaqının Fransanın müstəmləkə hakimiyyəti altında qalmaqda davam edən Mayot adası üzərində şəksiz suverenliyini həmişə güclü dəstəkləmişdir. Qoşulmama Hərəkatının təməl sənədlərində əks olunduğu kimi, biz Fransa hökumətini Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağırırıq.

"Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Biz, həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq", - deyə dövlətimizin başçısı qeyd edib.

"Tarixi müstəmləkəsizləşdirmə prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı bəşəriyyətin bu rüsvayçı səhifəsinin tamamilə aradan qaldırılması istiqamətində səylərini birləşdirməlidir", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

O, deyib: "Qoşulmama Hərəkatı Qəmər Adaları İttifaqının Fransanın müstəmləkə hakimiyyəti altında qalmaqda davam edən Mayot adası üzərində şəksiz suverenliyini həmişə güclü dəstəkləmişdir. Qoşulmama Hərəkatının təməl sənədlərində əks olunduğu kimi, biz Fransa hökumətini Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağırırıq".

Prezident qeyd edib ki, Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır.

## AZƏRBAYCAN DÜNYADA MİNA İLƏ ƏN ÇOX ÇİRKLƏNDİRİLMİŞ ÖLKƏLƏR ARASINDADIR

"Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır".

Bunu martın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə çıxışında söyləyib.

Dövlətimizin başçısı bildirib ki, İkinci Qarabağ müharibəsindən sonra, yəni 2020-ci ilin noyabr ayından bəri 300 azərbaycanlı mina partlayışı nəticəsində həlak olub və ya yaralanıb.



## BMT TƏHLÜKƏSİZLİK ŞURASININ TƏRKİBİ GENİŞLƏNDİRİLMƏLİDİR

"BMT Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir ki, orada daha çox ölkə təmsil olunsun və coğrafi baxımdan daha ədalətli olsun".

Bu sözləri martın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə çıxışında bildirib.

O, deyib: Dünyada uzun illərdir müzakirə olunan digər mühüm məsələ BMT sistemində aparılan islahatlardır. BMT Təhlükəsizlik Şurası keçmişi xatırladır və indiki reallığı əks etdirmir.

# İndi dünya "Soyuq müharibə"nin sona çatmasından bu yana baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahididir

"Yeni dünya düzəni yenidən formalaşmaqdadır. İndi dünya "Soyuq müharibə"nin sona çatmasından bəri baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahididir".
Bu sözləri martın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə çıxışında bildirib.
Dövlətimizin başçısı qeyd edib ki, bu qarşıdurmanın fəsadları dünyanın qalan hissəsində də hiss olunur.

# Qoşulmama Hərəkatı son bir neçə ildə beynəlxalq münasibətlərdə mühüm aktorlardan biri olub

"Qürurla deyə bilərəm ki, Qoşulmama Hərəkatı son bir neçə ildə beynəlxalq münasibətlərdə mühüm aktorlardan biri olub".
Bunu Azərbaycan Prezidenti İlham Əliyev martın 2-də Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə çıxışında söyləyib.

# "Bu sammit Belarus-Azərbaycan münasibətlərini daha da inkişaf etdirəcək"



"Ölkələrimiz arasında aktiv qarşılıqlı fəaliyyət təkcə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində deyil, həm də müxtəlif çoxtərəfli formatlarda həyata keçirilir. Biz Birləşmiş Millətlər Təşkilatı platformasında da, Müstəqil Dövlətlər Birliyi çərçivəsində də bir-birimizi dəstəkləyirik. Əlbəttə, ikitərəfli münasibətlər olduqca möhkəm və effektivdir, ölkələrimizin liderlərinin qarşılıqlı münasibətləri buna xüsusi çalar verir".
Bu fikirləri Belarus Baş nazirinin müavini İqor Petrişenko deyib.
"Belarus Prezidentinin 2021-ci ilin aprelində Azərbaycana səfəri bizim münasibətlərə əlavə stimul verib, ölkələrimizin yüksək vəzifəli şəxslərinin qarşılıqlı səfərləri və bir sıra digər tədbirlər bizim bütün sahələrdə fəaliyyətimizin inkişafına xidmət edir", - deyə Baş nazirin müavini qeyd edib.

# "Azərbaycanın sülh və təhlükəsizlik şəraitində yaşamaq təklifinin dəstəklənməsi böyük tarixi nailiyyətdir"



"Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin Tbilisidə keçirilən 8-ci toplantısında hər bir ölkə bölgədəki vəziyyətlə bağlı yekdil mövqe ortaya qoydu. Biz keçən il işğaldan azad olunmuş Şuşada toplandıq. Burada da artıq keçən dövrdə Azərbaycanın ortaya qoyduğu sülh iradəsi və birlikdə sülh şəraitində yaşamaq təklifi hər üç ölkə tərəfindən də dəstəklənib. Bu, çox böyük tarixi nailiyyətdir".
Bu sözləri AZƏRTAC-a müsahibəsində Türkiyə Böyük Millət Məclisinin xarici əlaqələr komitəsinin sədri Akif Çağatay Kılıç söyləyib.
Komitə sədri bildirib ki, Tbilisidə keçirilən 8-ci görüşdə üç ölkə arasındakı iş birliyinin və gələcək planların koordinasiyası müəyyən olundu. Bizim ölkələrin regionda çox böyük yatırımları var. Biz enerji, nəqliyyat və logistika sahələrinə böyük investisiyalar qoymuşuq. Gördüyümüz bu işlər həm bölgənin inkişafında, həm də dünyanın marağında olan məsələlərdir.

# Laçın-Xankəndi yolunda nəzarət-keçid məntəqəsi yaradılmalıdır

Martın 5-də səhər saatlarında qeyri-qanuni erməni birləşmələrinin törətdikləri təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları Əlibəyli Şəhriyar Ramiz oğlu və Hüseynov Eşqin Cəmil oğlu şəhid olublar.
Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən bildirilib.
Bu insident bir daha Azərbaycan tərəfindən Laçın-Xankəndi yolunun üzərində müvafiq nəzarət-keçid məntəqəsinin yaradılmasının zəruri olduğunu göstərir. "Ermənistanın yenə də Azərbaycanın Qarabağ iqtisadi rayonuna hərbi daşınmaları həyata keçirməsi faktı bu ölkənin Azərbaycana qarşı davam edən təcavüzü və terror siyasətidir. Törədilmiş təxribata görə bütün məsuliyyət Ermənistan hərbi-siyasi rəhbərliyinin üzərinə düşür", – Azərbaycanın Müdafiə Nazirliyindən əlavə olunub.

# XİN Nikol Paşinyana cavab verib

Azərbaycan Xarici İşlər Nazirliyinin sözçüsü Ayxan Hacızadə Ermənistan Baş naziri Nikol Paşinyana cavab verib.
O, Nikol Paşinyanın Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycanın Qarabağ bölgəsində erməni silahlı dəstələrinin təxribatını təhrif etdiyini bildirib.
"Cənab Baş nazir Nikol Paşinyan, terrorizm hərbi personalın, silahların, minaların köçürülməsi və mülki əhalinin öldürülməsi yolu ilə suverenliyini və ərazi bütövlüyünü tanıdığınız Azərbaycana qarşı bədnam siyasətin və hərbi təcavüzün davamıdır".
O qeyd edib ki, Azərbaycan Ermənistanın bu cür qanunsuz hərəkətlərinin qarşısını almaqla öz suveren ərazilərində qayda və nizamı bərqərar edir.

# Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının beynəlxalq arenada rolu və nüfuzu əsaslı şəkildə artıb




Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev xüsusi qeyd edib ki, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının beynəlxalq arenada rolu və nüfuzu əsaslı şəkildə artıb, bu mühüm platforma çərçivəsində ölkələr arasında çoxtərəfli əməkdaşlıq yeni səviyyəyə çatdırılıb. Pandemiya dövrünün çətinliklərinə baxmayaraq, həmrəylik və sıx birlik daha da möhkəmlənib. Təşkilatın tarixində ilk dəfə onun parlament və gənclər şəbəkələri yaradılıb. Bütün bu nailiyyətlər mənim hörmətli həmkarım İlham Heydər oğlunun böyük səyləri və təşəbbüsləri, üzv dövlətlərin maraqları naminə onun praktiki fəaliyyəti sayəsində mümkün olub. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev bu fikirləri Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun sammitində söyləyib.
Özbəkistan dövlətinin başçısı Azərbaycan Prezidentinin ölkə regionlarının bərpasına yönəlmiş effektiv səylərinə də diqqəti cəlb edərək vurğulayıb ki, burada tarixi ədalət, sosial-iqtisadi infrastruktur bərpa olunub, yeni obyektlər ucaldılıb, əhali üçün əlverişli şərait formalaşıb.

# "Biz qardaşıq və ürəyimiz Azərbaycanla döyünür"



Azərbaycana səfər etmək mənim üçün çox xoş oldu. Gəldiyimiz gündən Azərbaycan xalqının doğmalığını və qonaqpərvərliyini hiss etdim. Sizə xatırladım ki, bizim Azərbaycanla qardaşlıq münasibətlərimizə görə hələ də Ermənistanla əlaqələrimiz yoxdur.
Bunu Bakıda keçirilən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünün iştirakçısı, Pakistanın İqtisadiyyat naziri Sərdar Ayaz jurnalistlərə müsahibəsində bildirib.
O deyib: **"Ermənistan Azərbaycana hücum edərkən mən həmin ölkənin işğalçılıq siyasətini pisləyən qətnaməni Pakistan parlamentinə təqdim etdim. Növbəti dəfə parlamentdə çıxış edərkən Azərbaycanı Ermənistan üzərində qələbəsi münasibətilə təbrik etdim. Azərbaycan hər zaman Kəşmir məsələsində Pakistanın yanında olub. Pakistan da hər zaman Azərbaycanın haqlı mövqeyini beynəlxalq platformalarda dəstəkləyib.**
**Biz qardaşıq və ürəyimiz Azərbaycanla döyünür".**

# Xarici media nümayəndələri Laçın-Xankəndi yolundakı aksiyanı işıqlandırmaq üçün əraziyə gəliblər

Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşünü işıqlandırmaq üçün ölkəmizə gəlmiş xarici media nümayəndələri martın 5-də Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan aksiya yerinə gəliblər.
Ekoaksiyanın gedişi barədə məlumatlandırılan xarici media nümayəndələri aksiyadan reportajlar hazırlayıblar. Əcnəbi jurnalistlər, eyni zamanda, Rusiya sülhməramlılarına məxsus avtomobillərin Laçın-Xankəndi yolundan keçidini də izləyiblər.
Aksiya zamanı gecə olduğu kimi, gündüz saatlarında da təhlükəsizlik qaydalarına riayət olunub, heç bir insident müşahidə edilməyib. Etirazçıların toplaşdığı ərazidən keçən yolda nəqliyyatın sərbəst hərəkətinə heç bir manea yoxdur. Yol humanitar məqsədlər üçün tam açıqdır.

# Gürcüstan-Azərbaycan-Türkiyə formatına qoşulmaq Ermənistana hər şeydən vacib olan rahatlıq verə bilər

"Gürcüstan-Azərbaycan-Türkiyə üçtərəfli regional əməkdaşlıq formatının məqsədi regional layihələrin təhlükəsizliyini və effektivliyini təmin etməkdir. Ermənistanın bu formata qoşulması ona bizim dövrdə hər şeydən vacib olan rahatlıq verə bilər".
Gürcüstanlı siyasi analitik, "Novosti s Kavkaza" yutub kanalının müəllifi Gela Vasadze bu fikrini AZƏRTAC-la bölüşüb.
Məlum olduğu kimi, martın 6-da Tbilisidə Gürcüstan, Azərbaycan və Türkiyə parlamentlərinin xarici əlaqələr komitələrinin rəhbərlərinin görüşü olub. Tərəflər Cənubi Qafqazda sülh və sabitlik üçün regional əməkdaşlığın dərinləşdirilməsi məsələsini, regionun kommunikasiya funksiyasını, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu, Cənub Qaz Dəhlizi, Orta Dəhliz kimi tranzit dəhlizlərin, həmçinin Qara dəniz sualtı kabel layihəsinin vacibliyini müzakirə ediblər.
Agentliyin müsahibi deyib: "Burada hər şey sadə və aydındır: hər üç ölkə onların iqtisadiyyatının və milli təhlükəsizliyinin mühüm hissəsi olan regional logistik və enerji layihələrinin təhlükəsizliyini və effektivliyini təmin etməlidir. Burada milli təhlükəsizlik məsələsi birinci dərəcəlidir. Biz bu layihələrin həyata keçirilməsində müxtəlif mənada maraqlıyıq: Türkiyə üçün qarşılıqlı əlaqəli çoxsaylı layihələrdən biri, Gürcüstan və Azərbaycan üçün sistemyaradıcı layihələrdir".
G.Vasadzenin sözlərinə görə, siyasi mənada bu, ölkələrimizin təhlükəsizliyinin möhkəmlənməsi deməkdir. Bu isə indiki dolaşıq zamanədə heç də az əhəmiyyət kəsb etmir. Ekspert vurğulayıb ki, Türkiyə və Gürcüstan "Ramştayn" klubunun üzvləridir, Azərbaycan Qoşulmama Hərəkatında fəal iştirak edir, hər üç ölkə ən müxtəlif beynəlxalq formatların iştirakçılarıdır. Bu, onların bir-birini dəstəkləmək imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. G.Vasadze "Gələcəkdə Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşandan sonra o da bu formata qoşula bilərmi və bu halda onun qazancı nədən ibarət olacaq?" sualına cavab olaraq bildirib ki, belə imkan var, lakin həmin imkan yalnız adıçəkilən ölkələrlə bağlı problemlər həll edilәndən sonra gerçəkləşə bilər. Siyasi analitik vurğulayıb: "Mən bunu çox istərdim. Lakin təəssüf ki, hələlik bu istiqamətdə perspektiv görmürəm. Daha doğrusu, perspektivi gələcəkdə görürəm. Bugünkü vəziyyətdə münasibətlərin tam normallaşması mümkün deyil. Lakin bizi yalnız xoşagələn faktlarla heyrətləndirmək olar, ona görə ən yaxın vaxtda heyrətlənəcəyimizə ümid edirəm. Sualınızın ikinci hissəsinə gəldikdə, Ermənistan bu formata qoşulacağı təqdirdə o, bizim dövrdə hər şeydən vacib olan rahatlıq qazana bilər".

# Biz dünyanın bir parçasıyıq, dünyada baş verənlər, yaşananlar bu və ya digər dərəcədə bizə də təsirsiz ötüşmür






Dünyada xeyirxahlıq, mərhəmət və şəfqət ünvanları olduğu kimi, bizdə də insanın ürəyini fərəhləndirən ünvanlar zaman-zaman olub, bu gün də mövcuddur.

19-cu əsrin sonları, 20-ci əsrin əvvəllərindən Hacı Zeynalabdinlərlə, Musa Nağıyevlərlə, Murtuza Muxtarovlarla vüsət alan yol, genişlənən mesenatlıq, xeyriyyəçilik fəaliyyəti 21-ci əsrin əvvəllərində yenidən daha yeni xətlə davam etdirilməkdədir.

2004-cü ildə əsası ölkənin birinci xanımı, Birinci vitse-prezident, ISESCO VƏ UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva tərəfindən qoyulan Heydər Əliyev Fondu belə ünvanlardan - xeyirxahlıq, mərhəmət ünvanlarındandır.

Qısa zaman kəsiyində öz hüdudlarını genişləndirən, misilsiz fəaliyyəti ilə ölkə sərhədlərini aşan Heydər Əliyev Fondu, Fondun qurucusu Mehriban xanım artıq birmənalı şəkildə dünyanın xeyirxahlıq, mərhəmət və şəfqət simvoludur.

Yarandığı gündən bu Fond, bu ünvan kimsəsizlərin yiyəsi, sahibsizlərin sahibi, köməyə, mərhəmət və şəfqətə ehtiyacı olanların gözünə nur, çıraq, yaşam eşqi oldu. Fondun dəstəyi, Mehriban xanımın xeyir-duası ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində yüzlərlə məktəb tikilib istifadəyə verildi, əsaslı təmir olundu, yenidən quruldu.

Azərbaycan məktəbinə, Azərbaycan təhsilinə yeni, ikinci nəfəs verildi. Onlarla, yüzlərlə uşaq bağçası, körpələr evi, Talassemiya Mərkəzi və digər sağlamlıq, müalicə və müayinə ocaqları insanların istifadəsinə verildi, tarixi, milli və dini abidələrin bərpası gerçəkləşdirildi. Nəinki Azərbaycanda, başqa ölkələrdə belə tarixi-dini abidələrin, kilsələrin bərpası, təmiri yüksək və keyfiyyətli şəkildə həyata keçirildi.

44 günlük Vətən müharibəsindəki qələbəmizdən sonra ilk bərpa-quruculuq işlərinə başlanılması barədə Prezident İlham Əliyev belə demişdir: **"Bu gün Heydər Əliyev Fondu qarşısında yeni vəzifələr dayanır. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün fond azad edilmiş torpaqlarda geniş fəaliyyətə başlamışdır. Fondun təşəbbüsü ilə azad edilmiş torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesi başlanılıb. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilir, Zəngilan şəhər məscidi də həmçinin. Eyni zamanda, Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir. Təkcə sadaladığım dini abidələrimizin sayı 8-ə bərabərdir və əminəm ki, fond digər layihələrdə də fəal iştirak edəcək."**




Hər kəsə məlumdur ki, böyük qələbədən sonra Müzəffər və Qalib Ali Baş Komandanımız və birinci xanım yenidən Qarabağa, Füzuliyə və Şuşaya tarixi səfərini gerçəkləşdirdi. Bu səfər zamanı da tarixi anlar, hadisələr, açılışlar yaşandı. Xüsusilə də, Şuşamız əvvəlki günlərinə qayıtarıldı. Azərbaycanın böyük imza sahibləri olan dahilərin, korifeylərin - Molla Pənah Vaqifin, Üzeyir bəyin, Bülbülün heykəllərinin bərpadan sonra muzey-məqbərə komplekslərinin açılışları oldu. Xüsusilə də, ötən əsrin 80-ci illərinin sonlarından dayandırılan Vaqif Poeziya Günlərinin rəsmi açılış mərasimi keçirildi. Şuşanın Cıdır düzündə musiqisevərlərin həsrətlə gözlədiyi möhtəşəm "Xarı bülbül" musiqi festivalı yenidən təşkil olundu.




Şuşada məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı evin bərpası işləri də, Mehmandarovların malikanə kompleksində və Şirin su hamamında aparılan bərpa işləri də Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələrdəndir.

Heydər Əliyev Fondu və onun rəhbəri Mehriban xanımın yorulmaz fəaliyyəti haqqında günlərlə yazmaq olar. Amma yenə də kəlimələr, sözlər bəs etməz, fədakarlıq cild-cild kitablara, nəşrlərə sığmaz. Bu fəaliyyət sonsuzdur, hüdudsuzdur, sərhədsizdir.

Zəlzələdən, təbii fəlakətlərdən, seldaşqınlarından, xəstəliklərdən əziyyət çəkən yüz minlərlə insana təmənnasız kömək əli uzadılır, onlara həyat verilir. Qardaş və dost Pakistana illər öncə uzadılan yardım və kömək əli bunun canlı nümunəsidir. Belə nümunələrin, örnəklərin sayını artırmaq da olar.

Günlər öncə, bu ilin fevral ayının 6-da qardaş və dost Türkiyədə böyük zəlzələ, fəlakət yaşandı. Nəinki qardaş Türkiyə, Azərbaycanımızda hər birimiz sabahımızı böyük acı və kədərlə açdıq. Kahramanmaraş şəhəri mərkəz olmaqla, Türkiyənin 10 bölgəsində on minlərlə insanın ölümü, yüz mindən artıq insanın yaralanması, xəsarət alması, 13 milyondan artıq insanın böyük ziyan və zərər çəkməsi, ev-eşiksiz qalması ilə nəticələnən ardıcıl iki dəhşətli zəlzələ baş verdi.

Qardaş və dost ölkədə baş verən bu faciə hər birimizin faciəsinə, dərin kədərinə çevrildi. Hər birimiz bu acını canımızda, ruhumuzda yaşadıq, min kilometrlərlə uzaqda olsa da…

Çünki dahilərimizin dediyi kimi, "Türkiyənin sevinci Azərbaycanın sevinci, Türkiyənin kədəri Azərbaycanın kədəridir. Azərbaycanın sevinci Türkiyənin sevinci, Azərbaycanın kədəri Türkiyənin kədəridir", "Bir millət, iki dövlətik". Dünyada bu birgəliyin, bu bərabərliyin də tayı-bərabəri yoxdur. Və təbii ki, qardaşın harayına ilk səs verən də, onun imdadına ilk yetişən də məhz qardaşı, ən yaxın dostu olmalı idi. Necə ki, ikinci müstəqilliyimiz, Zəfərlə başa vurduğumuz İkinci Vətən müharibəsi dövründə qardaş və dost Türkiyə bizim yanımızda oldu, biz də ən çətin anlarında qardaş və dost Tükiyənin yanında olduq.

Bu, bizim vəfa borcumuz idi. Belə də olmalı idi. Başqa cür mümkün deyildi. Zəlzələnin, təbii fəlakətin yaşandığı ilk anlardaca hamıdan öncə qardaş və dost Türkiyənin yanında olan, ona qardaş və dost əli uzadan məhz biz olduq, Azərbaycan dövləti, Azərbaycan cəmiyyəti oldu.

Azərbaycan xalqı zəlzələnin ilk anlarından əlindən gələn yardımı, ürəyindən keçən dəstəyi göstərməyə başladı. Qısa zamanda bu iş koordinasiyalı, təmaslı, sistemli şəkildə həyata keçirilməyə başlandı.

Yenə də və yenidən Heydər Əliyev Fondu ilk sırada dayandı. Mehriban xanım Əliyevanın birbaşa tapşırığı və göstərişi ilə qardaş və dost ölkəyə yardım kampaniyası koordinasiyalı, sistemli şəkildə həyata keçirildi. Onlarla yardım maşınları, humanitar yardım təyyarələri qardaş və dost Türkiyəyə, dəhşətin, fəlakətin yaşandığı bölgələrə göndərildi və bu gün də göndərilməkdədir.

Xatırladaq ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, fevralın 9-dan etibarən Heydər Əliyev Fondu Türkiyəyə humanitar yardım təyyarələri göndərir. Bu yardımlar çərçivəsində zəlzələdən zərər çəkmiş şəxslərə müxtəlif dərman preparatları, tibbi ləvazimat və avadanlıqlar, isti geyimlər, qızdırıcısı olan çadırlar, generatorlar, istilik radiatorları, çöl üçün qızdırıcılar, dizel yanacaqlı kaloriferlər, axtarış-xilasetmə işlərinə dəstək məqsədi ilə ləvazimat və avadanlıqlar çatdırılıb.

**"Zəlzələ nəticəsində həlak olanların sayının artması bizi olduqca kədərləndirir. Həlak olanlara Allahdan rəhmət diləyir, onların doğmalarına və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verirəm. Yaralananların tezliklə şəfa tapmasını arzulayıram!"**

Bu barədə isə Mehriban xanım Əliyevanın günlər öncə Türkiyədəki zəlzələdən zərər çəkənlərə humanitar yardımla bağlı paylaşımında bildirilirdi.

**"Əminəm ki, Türkiyə xalqı öz iradəsi və mətinliyi sayəsində bu ağır sınaqdan sarsılmayacaq! Uca Tanrı dünyamızı qorusun! Türkiyə, səninləyik!"**, - deyə paylaşımda qeyd olunurdu.

Təbii ki, Azərbaycan dövləti və xalqının elliklə qardaş və dost Türkiyəyə kömək əli uzatması, Heydər Əliyev Fondunun və Fondun rəhbəri Mehriban Əliyevanın müstəsna fəaliyyəti qardaş və dost ölkə tərəfindən də qarşılığını görməkdə, ən ali dəyərlərlə qiymətləndirilməkdədir. İstər rəsmi - ən ali səviyyədə, istərsə də xalq, cəmiyyət səviyyəsində.

Hər gün, hər an mediadan, televiziyalardan, sosial şəbəkələrdən Azərbaycana, Heydər Əliyev Fonduna, Mehriban xanım Əliyevaya sevgilər, şükranlar, minnətdarlıqlar yağdırılmaqdadır.

Heç təsadüfi deyil ki, qardaş Türkiyənin birinci xanımı Əminə xanım Ərdoğan da Mehriban Əliyevaya zəlzələdəki çoxsaylı insan tələfatı ilə bağlı başsağlığına görə təşəkkür etdi. Əminə xanımın "Twitter"dəki paylaşımında deyilirdi:

**"Hörmətli Mehriban, başsağlığı mesajınız və kədərimizi bölüşdüyünüz üçün ürəkdən təşəkkür edirəm. Can Azərbaycan, çətin günümüzdə yardımımıza ilk gələnlərdən oldu. Dəstəkləriniz üçün təşəkkür edirik. Dostlarımızın yanımızda olduğunu bilmək gözəldir".**

Eyni zamanda, Əminə Ərdoğan "Twitter" hesabında ikinci dəfə paylaşım edərək, bu dəfə Mehriban Əliyevaya humanitar yardıma görə təşəkkür etdi.

Onun paylaşımında qeyd olunurdu: **"Kədəriniz kədərimizdir" deyən azərbaycanlı qardaşlarımızı unutmayacağıq. Axtarış-xilasetmə heyətləri başda olmaq üzrə humanitar yardım təyyarələri ilə ilk gündən etibarən bizimlə olan Azərbaycana və dəyərli dostum Mehriban Əliyevaya dəstəkləri üçün şükranlarımı bildirirəm".**

Bəli, qardaşlıq, birlik, həmrəylik sözlərdə, vədlərdə, kağızlar üzərində deyil, əməllərdə öz təsdiqi tapır. Nəinki sevincli anlarda, həm də ən çətin, sınaqlı anlarda, əməllərlə özünü göstərir.

Bəli, biz də xalq, dövlət, toplum olaraq, hər zaman yanımızda olan qardaş və dost Türkiyənin yanında olduq və bundan sonra da olacağıq.

Heydər Əliyev Fondu və Mehriban xanım Əliyevanın fəaliyyəti ilə də bu, bir daha öz təsdiqini tapdı və tapmaqdadır.

**Biz birik, bir idik, bundan sonra da bir və birgə olacağıq!**

**Millət vəkili, akademik**
**Ziyad SƏMƏDZADƏ**

# DSMF-nin sərbəst vəsaitləri investisiya kimi istifadə ediləcək



Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sərbəst vəsaitləri investisiya kimi istifadə oluna biləcək.
Bununla bağlı məsələ Milli Məclisin martın 7-də keçirilən iclasında müzakirə edilən "Sosial sığorta haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb.
Dəyişikliyə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dövlət sosial müdafiə fondunun sərbəst vəsaitlərini investisiyaya yönəldə bilər.
İnvestisiyaya yönəldilən sərbəst vəsait, investisiya gəlirləri və onun istifadə olunmamış qalığı Azərbaycan Respublikasının Mərkəzi Bankında açılmış hesaba toplanır və onların uçotu ayrıca aparılır. İnvestisiyaya yönəldilən sərbəst vəsait, investisiya gəlirləri və onun istifadə olunmamış qalığı növbəti büdcə ilinə sərbəst vəsaitin investisiyaya yönəldilən hissəsi kimi keçirilir.
Fondun xərclərində artım əsasən əmək pensiyalarının maliyyələşdirilməsi (5 907 180 000,0) üzrə proqnozlaşdırılıb ki, bu da əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı dövlət siyasətinin, eləcə də həyata keçirilmiş sığorta ödənişləri qarşılığında öhdəliklərin müvəffəqiyyətlə reallaşdırılması üçün əsaslı maliyyə zəminini formalaşdırır.
Müzakirələrdən sonra sənəd səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

# Mərkəzi Bank rekord sayda emissiya prospektini qeydiyyatdan keçirib

"2022-ci ildə Azərbaycan Mərkəzi Bankı (AMB) 33 emissiya prospektini qeydiyyata alıb".
Bunu martın 7-də AMB-nin Kapital bazarı fəaliyyətinə dair siyasət və nəzarət departamentinin direktoru Umeyra İbrahimova "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" (ASCO) QSC-nin istiqrazları üzrə abunə yazılışının uğurla başa çatmasına həsr olunmuş media brifinqində deyib.
"Bu, əvvəlki illərlə müqayisədə rekord göstəricidir, təkcə AMB-nin deyil, bazarın bütün iştirakçılarının birgə səyləri nəticəsində əldə edilmiş nailiyyətdir", - o qeyd edib. Xatırladaq ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" (ASCO) QSC-nin dövriyyəyə buraxılan istiqrazları üzrə abunə yazılışı uğurla başa çatıb. Faizli təmin edilməmiş sənədsiz adlı istiqrazların hər birinin nominal dəyəri 1 000 dollar, emissiyanın ümumi həcmi isə 100 milyon dollar təşkil edib.

# S&P SOCAR-ın müstəqil kredit qabiliyyəti reytinqinin artdığını bildirir

"S&P Global Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) yüksək təminatlı borcunun uzunmüddətli emitent kredit və emissiya reytinqlərini "BB-" səviyyəsində təsdiqləyib, həmçinin müstəqil kredit qabiliyyəti reytinqini (SACP) "b-"-dən "b"-yə yüksəldib.
S&P-nin hesabatında bildirilir ki, "stabil" reytinq proqnozu SOCAR-ın idarə oluna bilən likvidlik öhdəliklərini dəstəklədiyinə, əməliyyat fəaliyyətinə isə dövlət dəstəyinin səviyyəsi dəyişmədən stabil qaldığına dair agentliyin düşüncələrini əks etdirir.
"Bu, həmçinin şirkətin kapital qoyma layihələrində və əsas əməliyyatlarında heç bir ciddi gecikmə, artıq xərc və ya əməliyyat problemlərinin olmayacağı və SOCAR-ın hökumətlə çox güclü əlaqələrində ciddi dəyişikliklərin baş verməyəcəyinə dair gözləntilərimizi əks etdirir", - hesabatda deyilir.
Agentliyin məlumatına görə, SOCAR hazırda xammal məhsullarının qiymətlərinin yüksək olmasından faydalanır ki, bu da 2022-2024-cü illərdə gəlirin və pul axınlarının artmasına səbəb olmaqla göstəriciləri yaxşılaşdıracaq.
Agentlik, həmçinin reytinqin artmasının suveren reytinqin yüksəldilməsi nəticəsində baş verə biləcəyini qeyd edir.

# Dövlət Neft Fondunun "Şahdəniz"dən əldə olunan gəliri iki dəfədən çox artıb



Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) 1 yanvar 2023-cü il - 1 mart 2023-cü il tarixləri arasında "Şahdəniz" yatağından əldə olunan qaz və kondensat satışından 2022-ci ilin analoji dövründəki 227,557 milyon dollarla müqayisədə 534,751 milyon dollar dəyərində gəlir əldə edib.
Beləliklə, ARDNF-nin "Şahdəniz"dən əldə olunan gəlirləri ötən illə müqayisədə 2,3 dəfə artıb.
Hesabat dövründə "Şahdəniz" yatağından hasil edilən kondensat satışından əldə olunan gəlir 2022-ci ilin analoji dövründəki 22,172 milyon dollarla müqayisədə 2,6 dəfə artaraq 58,069 milyon dollar təşkil edib.
Qeyd edək ki, 2022-ci ildə Fondun "Şahdəniz" yatağından hasil olunan qaz və kondensat satışından əldə edilən gəliri 1,443 milyard dollar təşkil edib.
bp-nin məlumatlarına əsasən, 2022-ci ilin yekunlarına görə "Şahdəniz" yatağından ümumilikdə - Şahdəniz Alfa və Şahdəniz Bravo platformalarından birlikdə təqribən 25 milyard standart kubmetr qaz və 4 milyon tondan artıq kondensat hasil edilmişdir.
Mövcud Şahdəniz qurğularının hasilat gücü hazırda gündə təxminən 74 milyon (ildə 27 milyarddan artıq) standart kubmetrdir.

# İşğaldan azad olunmuş ərazilərdə 18 nəqliyyat layihəsi həyata keçirilir



Hazırda ümumi uzunluğu 2,2 min km olan 18 nəqliyyat layihəsinin tikintisi yüksək sürətlə davam edir.
Trend-in məlumatına görə, bu barədə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov jurnalistlərə deyib.
Nazir müavininin sözlərinə görə, xüsusən, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və Horadiz-Ağbənd dəmir yolunun tikintisi aparılır. Bundan başqa, yaxın gələcəkdə Şuşa şəhərində teleqüllənin tikintisinə başlamaq planlaşdırılır.
"Bu gün Şuşada və ətraf ərazilərində 11 televiziya və 7 radio kanalının yayımı təmin olunub", - o deyib. Hümmətov bu gün Qarabağda 203 stansiyanın mobil əlaqəni təmin etdiyini vurğulayıb.

# Qarabağda 8 magistral yolun tikintisi üzrə işlər görülür

Qarabağda səkkiz magistral avtomobil və iki dəmir yolunun tikintisi üzrə aktiv işlər görülməkdədir. Bu barədə Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonunun tərkibinə daxil olan işğaldan azad edilmiş ərazilərindəki (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi Emin Hüseynov Cəbrayıl, Zəngilan rayonlarında və Şuşa şəhərinin Daşaltı kəndindəki mədəni, tarixi və dini abidələrə baxış məqsədilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin işçi qrupunun iclasında deyib. Onun sözlərinə görə, ən genişmiqyaslı layihələrdən biri Bərdə-Ağdam, Talış-Tapqaraqoyunlu-Daşaltı, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolları və digərləridir.
"Bundan başqa, hazırda Bərdə-Ağdam və Horadiz-Ağbənd dəmir yolu inşa olunmaqdadır", - Hüseynov deyib.

# Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların həcmi açıqlanıb

"Son 10 il ərzində Avropa İttifaqı (Aİ) Azərbaycan iqtisadiyyatına təqribən 20 milyard avro investisiya qoyub".
Bu barədə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin idarə rəisi vəzifəsini icra edən Könül Əliyeva "Azərbaycanda yol hərəkətinin təhlükəsizliyinin gücləndirilməsi" mövzusunda konfransda deyib.
Onun sözlərinə görə, təkcə bu il Azərbaycanla Aİ arasında əmtəə dövriyyəsi nəzərdə tutulan iki milyard dolları ötüb.
"Bugünədək Azərbaycan Aİ ilə birlikdə turizm, təhsil, standartlaşma, icbari sığorta sektorlarında, həmçinin təbii sərvətlərin mühafizəsi sektorunda tvinninq layihələr həyata keçirib. 1992-ci ildən etibarən Aİ TIENS texniki dəstəyi çərçivəsində ölkəmizə 652 milyon manat maliyyə ayırıb", - o əlavə edib.

# Azərbaycanda 1 milyon avro dəyərində yol təhlükəsizliyi layihəsi həyata keçiriləcək



"Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Avropa İttifaqı ilə birlikdə həyata keçirdiyi tvinninq layihəsinin əsas məqsədi Azərbaycanda yol hərəkəti təhlükəsizliyinin artırılması və bu istiqamətdə fəaliyyətləri əhatə edir".
Bunu martın 5-də Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Şahin İsmayılov jurnalistlərə açıqlamasında deyib.
O qeyd edib ki, layihənin iki il müddətində - 2024-cü ilin oktyabr ayına qədər keçirilməsi nəzərdə tutulur.
"Layihənin büdcəsi 1 milyon avro nəzərdə tutulub. Layihə çərçivəsində Polşa və Litvadan 58 ekspertdən ibarət 38 müxtəlif missiyaların həyata keçirilməsi nəzərdə tutulur.
Layihənin əsas məqsədi ölkəmizdə ölüm və ağır xəsarətlərlə, o cümlədən ölkəmiz üçün zərərlə nəticələnən yol qəzalarının qarşısının alınması, bu istiqamətdə qanunvericiliyin təkmilləşdirilməsi, həmçinin yol təhlükəsizliyinin artırılmasında aktiv iştirak edən dövlət orqanlarının kadr potensialının artırılmasıdır", - deyə o əlavə edib.

# Qeyri-neft məhsullarının Mərakeşə ixracı müzakirə olunub



İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun nümayəndələri Mərakeşin Rabat və Kasablanka şəhərlərində bir sıra görüşlər keçiriblər.
AZPROMO-dan bildirilib ki, səfər çərçivəsində Mərakeş bazarının xüsusiyyətlərinin öyrənilməsi, Azərbaycanın qeyri-neft məhsullarının Mərakeşə ixracına dair fikir mübadiləsi aparılıb, Azərbaycanın, xüsusilə işğaldan azad olunmuş ərazilərimizin investisiya imkanları diqqətə çatdırılıb, qabaqcıl təcrübə və məlumat mübadiləsinin aparılmasına dair razılıqlar əldə olunub.

# BÖYÜK QAYIDIŞ: QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR QURUCULUQ VƏ DİRÇƏLİŞ YOLUNDA

### 6. Ərazilərdə ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi

**İşğal dövründə Ermənistan ərazilərimizi yalnız talan etməyib, həm onları ekoloji baxımdan çirkləndirib. Ökəmizə məxsus 167 faydalı qazıntı yatağından 52-si heç bir ekoloji norma gözlənilmədən vəhşicəsinə istismara məruz qalıb.**

Ona görə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramının əsas prioritetlərindən biri ətraf mühitlə bağlı problemlərin həlli, dinamik iqtisadi inkişaf fonunda ekoloji təhlükəsizliyin təmin olunması, ən müasir – aztullantılı texnologiyaların tətbiqi və təmiz ekoloji mühitin yaradılmasıdır. Sənəddə "işğaldan azad olunmuş ərazilərə böyük qayıdış", "təmiz ətraf mühit və yaşıl artım ölkəsi" prioritetləri arasında tam sinerji təmin edilib. Belə ki, sənəddə meşə fondunun, flora və faunanın bərpası, xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı, hidrometeoroloji müşahidə şəbəkəsinin bərpası, su resursları və mineral xammal ehtiyatlarından səmərəli istifadə və s. məsələlər əsas prioritetlər kimi göstərilib. Proqramda qeyd olunan istiqamətlərə uyğun olaraq bu ərazilərdə ekoloji mühitin bərpası üçün mərhələli şəkildə işlərə başlanılıb.

Proqrama əsasən burada vacib məsələlərdən biri radioloji və radioekoloji tədqiqatların aparılmasıdır. Bunun üçün 64 dövlət əhəmiyyətli obyekt, 155 içməli su mənbəyi radioloji tədqiq ediləcək, ərazilərdə radiasiya təhlükəsizliyi müəyyənləşdiriləcək.

Regionun hidrometeoroloji müşahidə şəbəkəsi də bərpa olunacaq. Hidrometeoroloji müşahidələrin bərpası, məlumatların mərkəzi serverə ötürülməsi və situasiya mərkəzində vizuallaşmasının təmin olunması, iqlim şəraiti və su ehtiyatlarının öyrənilməsi, proqnozların keyfiyyətinin artırılması və erkən xəbərdarlıq sisteminin yaradılması üçün 1 dəst aeroloji stansiya, 1 dəst dopler hava radarı, 16 dəst avtomat hidroloji stansiya, 9 dəst avtomat meteoroloji stansiya quraşdırılacaq.

Hazırda Şuşa, Ağdam, Füzuli, Kəlbəcər və Zəngilan rayonlarında 5 avtomat meteoroloji stansiya quraşdırılır.

Torpaqların işğaldan azad olunmasından sonra Zəngilan rayonunun Ağalı kəndində 1 ədəd avtomat aqrometeoroloji stansiya quraşdırılaraq işə salınmışdır. Yerüstü su ehtiyatlarının qiymətləndirilməsi məqsədilə 10 çay (Araz, Bəsitçay, Oxçuçay, Həkəriçay, Bərguşadçay, Zabuxçay, Tutqunçay, Tərtərçay, Köndələnçay, Qarqarçay) üzərində 11 dəst avtomat hidroloji stansiya quraşdırılmışdır.

2023-2024-cü illər ərzində Füzuli rayonu ərazisində Qarabağ Regional Hidrometeorologiya Mərkəzinin tikintisi də planlaşdırılır.

Altıncı prioritetlə bağlı digər fəaliyyət istiqaməti xüsusi mühafizə olunan təbiət ərazilərinin infrastrukturla təmini olacaq.

Bu məqsədlə Qarabağın təbii ehtiyatlar atlası və Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə rəqəmsal tematik xəritələr hazırlanacaq. Xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması, mövcud sahələrin genişləndirilməsi və ya statuslarının dəyişdirilməsi ilə bağlı monitorinqlər həyata keçiriləcək, imkanlar araşdırılacaq. Bəsitçay Dövlət Təbiət Qoruğunda isə xüsusi infrastruktur yaradılacaq. Bunun üçün qoruğun inzibati binasının layihələndirilməsi, tikintisi və istifadəyə verilməsi nəzərdə tutulur.

Mühüm vəzifələrdən biri də meşə fondunun, flora və faunanın bərpasıdır. Bunun üçün ilk növbədə meşə fondunun inventarlaşdırılması və qiymətləndirilməsi həyata keçiriləcək, ərazilərin 3D görüntüsü yaradılacaq, meşə fondu torpaqlarının hüdudları müəyyənləşdiriləcək, plan-kartoqrafik materiallar tərtib olunacaq. Məhv edilmiş meşə sahələrinin bərpası və artırılması üçün 1 150 ha meşə əkini və meşə səpini işləri aparılacaq.

Orta və uzunmüddətli perspektivdə meşələrin bərpa edilməsi və əvvəlki vəziyyətinə qaytarılması üçün meşə əkini işlərinə ötən illərdən etibarən başlanılıb. Cəbrayıl, Zəngilan, Füzuli və Ağdam rayonlarında geniş ərazilərdə terraslar və yaşıl dəhlizlərdən ibarət meşə-parkların salınmasına başlanılıb. Cəbrayıl rayonunda Türkiyə Respublikası ilə birlikdə "Azərbaycan-Türkiyə Beynəlxalq Meşəçilik Təlim Mərkəzi", "Ağıllı Tinglik Təsərrüfatı" və "Dostluq meşəsi" yaradılacaq. Artıq bu işlərə başlanılıb. Buradakı tinglik sahələrində il ərzində 2 milyon fidanın yetişdirilməsi xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında meşələrin bərpası tədbirlərinə böyük təkan verəcək.

**Fauna növlərinin reintroduksiyası üçün heyvan növləri müəyyənləşdiriləcək, onların adaptasiya prosesi üçün hazırlıq işləri görüləcək. Adaptasiya dövrü keçmiş heyvanlar seçilmiş ərazilərə buraxılacaqlar.**

Ötən dövrdə bölgədə yerləşən xüsusi mühafizə olunan təbiət ərazilərinin fəaliyyətinin, buradakı bioloji müxtəlifliyin və təbiət abidələrinin bərpası istiqamətində müxtəli tədbirlər görülüb. IDEA İctimai Birliyi və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondu ilə birgə bəzi heyvan növlərinin, ilkin mərhələdə ceyran və bezoar keçisinin öz tarixi areallarına reintroduksiyası layihələrinə başlanılıb, ötən ildə artıq Cəbrayıl rayonu ərazisinə 33 baş ceyran buraxılıb. Regionda su bioresurslarının bərpası və artırılması məqsədilə Bəsitçay, Köndələnçay, Bərgüşadçay və Həkəri çaylarına, eləcə də Suqovuşan və Xaçınçay su anbarlarına davamlı olaraq müxtəlif növ balıq körpələri buraxılıb.

Qarabağ və Şərqi Zəngəzurda ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi istiqamətində ən mühüm vəzifələrdən biri enerji səmərəli və ekoloji təmiz texnologiyaların tətbiqidir. Dövlət proqramında bu istiqamətdə konkret vəzifələr müəyyən edilib.

Qeyd edək ki, hazırda bir çox ölkələrdə qarşıya qoyulan hədəflərdən biri "yaşıl enerji"yə keçiddir. Enerji keçidi ənənəvi enerji resurslarının bərpa olunan enerji mənbələri ilə əvəzlənməsini, yəni "yaşıl enerjini" özündə ehtiva edir. Müasir çağırışlardan və enerji balansında gözlənilən struktur dəyişikliklərdən irəli gələrək, bərpa olunun və təmiz enerji güclərinin artırılması, "yaşıl enerji" marşrutlarının yaradılması kimi vəzifələr bu gün qlobal gündəmin əsas mövzularından biridir.

Azərbaycanda "yaşıl enerji"yə keçid enerji siyasətinin prioritet istiqamətlərindən biri kimi çıxış edir. Ölkəmizdəki iqlim şəraiti "yaşıl enerjinin" əldə edilməsi üçün geniş imkanlar yaradır. Təsadüfi deyil ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də elan edilən əsas istiqamətlərdən biri budur. Artıq respublikamızda bu sahədə layihələr də həyata keçirilməkdədir. 2022-ci ilin yanvar ayında ölkəmizdə Səudiyyə Ərəbistanını təmsil edən "ACWA Power" şirkəti ilə 240 meqavat gücündə Külək-Elektrik Stansiyasının təməli qoyulub. Mart ayında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib.

53-cü Davos İqtisadi Forumu çərçivəsində keçirilən "Avrasiya Orta Dəhlizi: yoldan magistrala" mövzusunda panel iclasda Prezident İlham Əliyev bu barədə deyib: ***"Yaşıl enerji ilə bağlı potensial çox böyükdür. Xəzər dənizinin külək potensialı 157 qiqavatdır. Qurudakı potensial 27 qiqavatdır. Eyni zamanda, iki il bundan əvvəl aparılmış Vətən müharibəsində işğaldan azad etdiyimiz ərazilərdə 10 qiqavat potensial mövcuddur. Deməк olar ki, 200 qiqavata yaxındır. Baş nazir qeyd etdiyi kimi, keçən ilin dekabrında biz Gürcüstandan Rumıniyaya sualtı kabel xəttini çəkmək üçün Buxarestdə müqavilə imzaladıq və bu xəttin gücü 4 qiqavatdır. Hazırda texniki-iqtisadi əsaslandırma işləri aparılır. Hazır olduqdan sonra biz maliyyələşmənin strukturu barədə düşünəcəyik və əlbəttə ki, Avropa maliyyə institutlarının dəstəyinə ehtiyac olacaq. "Masdar"-la imzalanmış razılaşma külək və günəş enerjisi hasilatını 2027-ci ilədək 4 qiqavat və 2037-ci ilədək 6 qiqavat artıracaq. "Fortescue Future Industries"lə imzalanmış Anlaşma Memorandumuna əsasən 12 qiqavatadək hasilat üçün Azərbaycana investisiya yatırılacaq. Bu, həqiqətən də enerji siyasətimizin yeni fəslidir. Neftlə, qazla bağlı işlər yekunlaşıb. Elektrik enerjisi, yaşıl hidrogen və bütün bunlar bizim planlarımızda var".***

2023-cü il yanvarın 16-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimindəki çıxışında da bu məsələyə toxunan Prezident İlham Əliyev bildirib ki, 2020-ci ildə Vətən müharibəsi zamanı azad edilmiş ərazilərimizdə 10 qiqavatlıq külək və günəş enerjisi potensialı var.

Dövlər Proqramına əsasən 2022-2026-cı illərdə Qarabağ və Şərqi Zəngəzurda günəş və külək elektrik stansiyalarının tikilməsi hədəflənir. Artıq BP şirkəti ilə Zəngilan/Cəbrayıl zonasında 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisinin həyata keçirilməsi barədə razılıq əldə olunub. Bundan başqa, özəl investisiya hesabına Laçın və ya Kəlbəcər rayonlarında ümumi gücü təqribən 400 MVt olan külək elektrik stansiyası da inşa ediləcək.

Azad olunmuş ərazilərimiz həm də hidroenerji resursları ilə zəngindir. Çünki bu ərazilər böyük həcmdə yerli su ehtiyatlarının formalaşdığı bölgələrdir. Xatırladaq ki, azad edilmiş ərazilərimizdəki iti axan dağ çaylarının üzərində vaxtilə 30-a yaxın kiçik su elektrik stansiyası da mövcud olub. Ona görə bu ərazilərdə elektrik enerjisinin 90 faizindən çoxu su elektrik stansiyalarında istehsal edilib.

İşğal dövründə isə hətta buradan Ermənistana da enerji ötürülüb. 2020-ci ilin birinci yarısında burada elektrik enerjisi istehsalı 50 faiz artaraq 324,8 mln. kilovat/saat olub. 2020-ci ildə Qarabağdan Ermənistana təxminən 200 mln. kilovat/saat elektrik enerjisinin ötürülməsi planlaşdırılmışdı. Bu il isə Ermənistana 330 mln. kilovat/saat elektrik enerjisi ötürülməsi nəzərdə tutulurdu. Lakin Vətən müharibəsi ermənilərin bütün planlarını alt-üst etdi. Ancaq Ermənistan Vətən müharibəsi dövründə torpaqlarımızdan qovularkən, o cümlədən kapitulyasiyadan sonrakı 20 gün ərzində Kəlbəcər və Laçındakı bütün su elektrik stansiyalarını darmadağın edilib. Onların avadanlıqları çıxarılaraq Ermənistana daşınıb. Apara bilmədiklərini yandırıblar, stansiyaların binalarını isə dağıdıblar və ya partladıblar.

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən işğaldan azad olunan torpaqların enerji infrastrukturunun bərpası istiqamətində görülən işlərin bir istiqamətini də azad olunmuş ərazilərin iti axan çaylarının üzərindəki dağıdılmış elektrik stansiyalarının bərpası və ya yenilərinin inşasıdır.

Proqrama əsasən yararsız hala salınmış 23 kiçik su elektrik stansiyasının bərpası nəzərdə tutulur. 2021-2022-ci illərdə onlardan 8 MVt gücündə "Güləbird" SES, 4,8 MVt gücündə "Suqovuşan-1" SES, 3 MVt gücündə "Suqovuşan-2" SES,4,4 MVt gücündə "Kəlbəcər-1" SES, 6,3 MVt gücündə "Qamışlı" SES, 8,3 MVt gücündə "Çıraq-1" SES, 3,6 MVt gücündə "Çıraq-2" SES, 5,3 MVt gücündə "Soyuqbulaq" SES, 3,4 MVt gücündə "Meydan" SES bərpa edilmişdir.

2025-ci ilə qədər 100 MVt gücündə Xudafərin SES-in və 40 MVt gücündə Qız Qalası SES-in tikintisi başa çatdırılacaq. Eləcə də daha 28 kiçik su elektrik stansiyasının tikintisi nəzərdə tutulur. Çünki azad olunmuş ərazilərimizin dağ çaylarının sürətli axına və bol suya malik olmaları ekoloji baxımdan təmiz olan çoxlu su elektrik stansiyalarının yaradılmasına imkan verir. Onların bərpasına və tikintisinə isə həm də özəl investisiya cəlb ediləcək.

Bərpa olunan enerji mənbələri hesabına istehsal olunan elektrik enerjisinin şəbəkəyə inteqrasiyası üzrə tədbirlərin həyata keçirilməsi, damüstü günəş enerjisi sistemlərinin quraşdırılması üzrə və yolların işıqlandırılmasında enerji səmərəli "yaşıl" texnologiyaların tətbiqinə dair tələblərin müəyyən edilməsi, nəqliyyat vasitələri üçün elektrik doldurma məntəqələrinin quraşdırılması ilə də bağlı tədbirlərin həyata keçirilməsi azad olunmuş torpaqlarımızın «yaşıl enerji» konsepsiyası əsasında bərpasını tamamlayacaq.

Azad olunmuş ərazilərimizin ekoloji baxımdan qorunması üçün bərk məişət tullantılarının idarə edilməsi üçün müasir infrastruktur yaradılacaq. Dövlət Proqramına əsasən bunun üçün Zəngilan, Xocalı (Şuşa şəhəri üçün), Füzuli, Ağdam, Tərtər, Qubadlı, Cəbrayıl, Kəlbəcər və Laçın rayonları üzrə 9 poliqon ərazisi müəyyən olunacaq.



### Qarşıdakı 4 il ərzində Qarabağ və Şərqi Zəngəzurda möhtəşəm quruculuğa şahidlik edəcəyik

Göründüyü kimi, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda işğaldan azad edilmiş ərazilərdə aparılacaq bərpa-quruculuq işləri, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri kompleks şəkildə öz əksini tapıb. Proqramda qarşıya qoyulan vəzifələrin hər biri göstərir ki, qarşıdakı 4 il ərzində Qarabağ və Şərqi Zəngəzurda həyata keçiriləcək möhtəşəm quruculuq işlərinə şahidlik edəcəyik.

Dövlət Proqramının icrası qoyulan hədəflər nəzərə alınmaqla monitorinq olunacaq. Monitorinq məqsədilə tədbirlər üzrə ilkin, aralıq və yekun nəticələr müəyyən edilir. İlkin nəticələr Dövlət Proqramının icra olunduğu dövr ərzində hər ili, aralıq nəticələr illik əsasda olmaqla 2023, 2024 və 2025-ci illəri, yekun nəticələr isə 2026-cı ili əhatə edir.

Qeyd etmək yerinə düşər ki, proqramın icrası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin əlaqələndirilmiş şəkildə təşkili, ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, dövlət-özəl tərəfdaşlığına əsaslanan iqtisadi artımın stimullaşdırılması və dayanıqlı məskunlaşmanın təmin edilməsi kimi hədəflərin həyata keçirilməsində institusional baza müstəsna əhəmiyyətə malikdir. İnstitusional mexanizmlər isə postmüharibə dövrünün ilk günlərində yaradılıb. Belə ki, Azərbaycan Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı yaradılıb. Əlaqələndirmə Qərargahının nəzdində isə katiblik və kommunikasiya funksiyasının yerinə yetirilməsi, həmçinin analitik-təşkilati dəstək göstərilməsi üçün İdarələrarası Mərkəz formalaşdırılıb. Həmçinin bu sahədə işin təşkili məqsədilə Əlaqələndirmə Qərargahının nəzdində müxtəlif dövlət qurumlarının səlahiyyətli nümayəndələrindən ibarət və işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması üzrə məsələlərin operativ həlli məqsədilə işçi qruplar fəaliyyətə başlayıb.

**Su ehtiyatlarından səmərəli istifadə üzrə Komissiyaya isə işğaldan azad edilmiş ərazilərin su ehtiyatlarından səmərəli istifadə edilməsi məqsədilə su təsərrüfatı obyektlərinin tikintisi, yenidən qurulması, bərpası, içməli su və suvarma suyu təchizatı, habelə yağış sularının idarə olunması ilə bağlı tədbirlərin əlaqələndirilməsinin Əlaqələndirmə Qərargahı ilə birlikdə təmin edilməsi tapşırılıb.**

İnstitusional mexanizmlərlə bağlı ən mühüm addımlardan biri də işğaldan azad olunmuş ərazilərdə müvəqqəti xüsusi idarəetmənin təşkili məqsədilə inzibati ərazi bölgüsünə uyğun olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar və Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin formalaşdırılmasıdır.

Bütövlükdə, təkmil instusional idarəetmə mexanizmi Dövlət Proqramı üzrə qarşıya qoyulan vəzifələrin vaxtında və keyfiyyətlə həyata keçirilməsini təmin edəcək. Ən əsası Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi ilə işğaldan azad olunmuş bütün rayonlarımızda, bütün şəhər və kəndlərimizdə həyat yenidən canlanacaq. Qarabağ və Şərqi Zəngəzurun xilaskarı olan İlham Əliyev bu torpaqlara həm də yeni həyat bəxş edir.

**Akademik Ziyad SƏMƏDZADƏ**

# Möhkəm iradə və zərif qəlb sahibləri: Qadınlar

*Hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hisslər əsas yer tutmalıdır. O cəmiyyətdə ki, həm dövlət qurumları, həm də vətəndaş cəmiyyəti məhz bu prinsiplər əsasında həm öz həyatını, həm də öz fəaliyyətini qurur, o cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir.*

*Azərbaycan Respublikasının I vitse-prezidenti Mehriban Əliyeva*


*Azərbaycanı zülmətdən işığa aparan maarifçi qadınlar*

***Cəmiyyətin təəssübkeşi olan Azərbaycan qadınları zaman-zaman ölkədə baş verən ictimai-siyasi proseslərin gedişində üzərlərinə götürdüyü çətin işlərin öhdəsindən ləyaqətlə gəlmişlər.*** Cəmiyyətin sosial-mədəni həyatında və xalqın maariflənməsi yolunda fədakarcasına çalışan qadınlarımız ötən əsrin əvvəllərində qızları təhsilə cəlb etməyə çalışmış, gələcəyin açarını məhz bilikli və savadlı olmaqda görmüşlər. Özləri kübar, zadəgan ailələrin üzvləri olsalar da hər zaman kimsəsizlərə, yoxsullara yardım əlini uzatmış, ehtiyac içində yaşayan insanların qəlbində ümid, gələcəyə inam çırağı yandırmağa nail olmuşlar, xalqın məzlum oğul və qızlarına həm mənəvi, həm də maddi dəstək olmuşlar. **XX əsrin əvvəllərində - 1-ci Dünya müharibəsi dövründə yaradılmış Bakı müsəlman qadın xeyriyyə cəmiyyəti məhz valideynlərini itirmiş uşaqlara, yoxsul ailələrə və qaçqınlara yardım etmək məqsədilə təsis edilmiş qeyri-hökumət xeyriyyəçilik qurumu kimi fəaliyyət göstərmişdir.** Bu cəmiyyət 1914-cü il noyabrın 21-də Rəhilə Hacıbababəyova tərəfindən təsis edilmişdi. M.S.Tağıyeva cəmiyyətin idarə heyətinin sədri, Rəhilə Hacıbababəyova sədrin müavini, Əminə Ağayeva katib, Pəri Topçubaşova xəzinədar seçilmişdi. Cəmiyyət xəstə və yaralı əsgərlərə, yetim və yoxsul uşaqlara yardım göstərir, tez-tez müxtəlif tədbirlər keçirirdi.

Cəmiyyət 1-ci Dünya müharibəsi illərində Rusiyaya əsir düşmüş yaralı türk əsgərlərinə də yardım göstərmişdir. 1917-ci ilin oktyabrında Liza Muxtarovanın (milyonçu Murtuza Muxtarovun həyat yoldaşı) sədrlik etdiyi Bakı müsəlman qadın xeyriyyə cəmiyyəti yoxsul qızlar üçün peşə məktəbi açmışdı. Məktəbdə 4 ümumtəhsil sinfi və 6 peşə bölməsi fəaliyyət göstərirdi. Türk dili, hesab, əl işi, biçmə və tikmə üzrə dərslər keçilirdi. ***1918-ci ilin qanlı mart qırğınları zamanı məktəb öz fəaliyyətini dayandırmışdı. 1919-cu ilin əvvəllərində cəmiyyət məktəbin fəaliyyətini yenidən bərpa etmişdi.*** AXC hökuməti həmin məktəbin səmərəli işləməsi üçün cəmiyyətə 30 min manat vəsait ayırmışdı. Məktəb azərbaycanlı qızların savadlanmasında, onlara milli-mənəvi dəyərlərin aşılanmasında, ailədə və cəmiyyətdə öz hüquqlarını anlamasında böyük rol oynamışdır. Xatırladaq ki, 1918-ci ildə qurulmuş AXC qadınlarımıza müsəlman Şərqində ilk dəfə olaraq seçmək və seçilmək hüququ qazandırmışdı. Halbuki, həmin dövrdə seçki sahəsində gender bərabərliyi prinsipi nəinki müsəlman Şərqində, hətta ABŞ və Avropa dövlətlərinin əksəriyyətində hələ yox idi. Təəssüf ki, bir çox mütərəqqi ideyaların qarşısını kəsən Aprel işğalı bu cəmiyyətin də fəaliyyətinə son qoydu.

***Bu gün Azərbaycan qadınının cəmiyyətin tərəqqisi yolunda açdığı cığırlarla müasir zamanəmizin tələblərinə uyğun səviyyədə elmin, siyasətin ən uca zirvələrinə yüksəlmiş elm, sənət, dövlət xadimləri olan qadınlarımız irəliləyir və cəmiyyətdə öz layiqli yerini tuturlar, respublikamızın inkişafı, dövlətçilik ənənələrinin möhkəmlənməsi naminə var qüvvəsini əsirgəmirlər.***

*"Tariximizin keşməkeşli səhifələrinə Azərbaycan qadını qayğıkeş ana, fitri istedada malik şair, möhkəm iradəli hökmdar, dərin zəkalı mütəfəkkir kimi öz adını həkk etdirmişdir".*

*Ulu Öndər Heydər Əliyev*








# Elçin dünyası

1943-cü il, İkinci Dünya müharibəsinin tən ortası idi. Artıq Sovet Ordusu Vətəni alman faşistlərindən təmizləyirdi. Bu yazda XX əsr Azərbaycan ədəbiyyatının klassiki İlyas Əfəndiyevin ailəsində oğlan uşağı dünyaya göz açmışdı. Uşağa ad qoyanda atası İlyas kimi türk adı olan Elçin adı ilə razılaşmışdı. Elçin, yəni haqq-ədalət yolçusu, həqiqət tərəfdarı, düzlük, doğruluq, şərəfli insan. Elçin bütün bunları özündə cəmləşdirdi. Müharibənin bütün çətinliklərinə baxmayaraq, o da "qarğı at" sürmüş, Xəzərin qumlu sahillərində gəzərək öz ömrünün cəhlimlərini açmışdır.

Müasir Azərbaycan ədəbiyyatının böyük nümayəndələrindən biri, Xalq yazıçısı, filologiya elmləri doktoru, professor Elçin 1943-cü il may ayının 13-də, Bakı şəhərində, XX əsr Azərbaycan ədəbiyyatının klassiki İlyas Əfəndiyevin ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almış, universitet Elmi Şurasının zəmanəti ilə Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda ədəbiyyat nəzəriyyəsi üzrə aspiranturaya daxil olmuş, "Azərbaycan bədii nəsri ədəbi tənqiddə" mövzusunda namizədlik, daha sonra "Ədəbiyyatda tarix və müasirlik problemi" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir.

Bədii yaradıcılığa lap erkən yaşlarından başlamışdır. İlk hekayəsi ("O inanırdı") 1959-cu ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunmuş və ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Bundan sonra o, dövri mətbuatda müntəzəm olaraq bir- birindən maraqlı hekayə, povest, roman və ədəbi-tənqidi məqalələrlə çıxış etmişdir. Böyük ədibin hekayələrindən, povest, roman və pyeslərindən ibarət müxtəlif dillərdə 100-dən çox kitabı, elmi monoqrafiyaları nəşr edilmişdir. Elçinin məşhur "Mahmud və Məryəm", "Ağ dəvə" və "Ölüm hökmü" romanları Azərbaycan nəsrinin qızıl fonduna daxil olmuşdur.

60-cı illər ədəbi nəslinin ən istedadlı və aparıcı nümayəndələrindən olan Elçin əsərlərinin mövzusunu həmişə oxucunu düşündürən, narahat edən, bu gün üçün səciyyəvi, tipik olan hadisələrdən alır. Özünəməxsusluq, orijinallıq, yenilik, psixoloji dərinlik və dəqiqlik, bədii dilin, lüğət tərkibinin zənginliyi, dünyagörüşünün genişliyi onun çoxcəhətli yaradıcılığını şərtləndirən başlıca xüsusiyyətlərdəndir.

Elçin qələmə aldığı hər bir obrazın dolğun, cəzbedici alınması üçün onun əxlaqi-mənəvi keyfiyyətlərini, düşüncələrini, psixologiyasını son dərəcə spesifik, mənalı lövhə və detallarla açmağı bacarır və onun yaradıcılığını şərtləndirən bu cəhətlər həmişə ədəbi tənqidin diqqət mərkəzində olmuş, yüksək qiymətləndirilmişdir.

Əsərlərinin məhz bu keyfiyyətlərinə görə Elçin müxtəlif millətlərdən ibarət milyonlarla oxucu auditoriyasının sevimli yazıçısıdır.

O, istər kiçik, istərsə də irihəcmli əsər yazsın, fərqi yoxdur, seçdiyi mövzunu sənətin yüksək bədii-estetik tələbləri səviyyəsinə qaldırır, onun təsvir etdiyi hadisələr həyati, canlı və təsirli alınır, obrazların ömür yolu bədii sözün işığında hərtərəfli görünür. Buna görə də Murad, Sevil, Ağanəcəf, Baladadaş ("Baladadaşın ilk məhəbbəti"), Cavanşir, Fazilə, Ayaz ("Qış nağılı"), Ayna, Cəfər, Qəşəm, Sədəf, Salman kişi ("Gümüşü, narıncı,



məxməri"), Qəzənfər, Əmirqulu, Ələkbər, Ağababa, Əzizağa ("Baladadaşın toy hamamı"), Ziba, Mürşüd, İmaş, Cəbi ("Ox kimi bıçaq") və bir çox başqa surətlər yadda qalır, bizə fərdiləşən, psixologiyası, fikir və hiss aləmi doğma olan obraz təsiri bağışlayırlar.

İstedadlı tənqidçi Nadir Cabbarov "Həyat nəfəsli nəsr" məqaləsində yazır: ***"Ciddi nəsr! Olsun ki, bu ifadə ədəbi anlayış kimi qeyri-dəqiqdir və istilah kimi özünü doğrultmasın. Lakin yazıçının***



***gerçəkliklə ünsiyyəti, onun həyat materialı ilə sənətkar rəftarı baxımından bu ifadə, zənnimcə, çox yerinə düşür: Elçin nəsri ciddi nəsrdir - sözünün canı olan mətləbli nəsrdir".***

Elçin təkcə hekayələrində yox, povest və romanlarında da söz israfçılığına yol vermir, həmişə lakonik yazır, əsl mətləbi qələmə alır, rəmz və şərtiliklərdən, öz-özü ilə söhbət və daxili dialoqlardan, əfsanə və nağıl ünsürlərindən tez-tez istifadə edir.

Elçinin **"Bir görüşün tarixçəsi", "Toyuğun diri qalması", "Dolça"** kimi povestləri yalnız Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində nəşr olunmuş, oxucular tərəfindən böyük maraqla qarşılanmışdır. Təsadüfi deyil ki, bu povestlər keçmiş Sovet İttifaqının ən populyar və çoxtirajlı jurnallarında dərc edilmişdir. **("Bir görüşün tarixçəsi" – "Yunost" jurnalı, 1977, №6; "Toyuğun diri qalması" – "Drujba narodov" və "Don" jurnalları, eyni vaxtda, 1978, №10; "Dolça" – "Yunost" jurnalı, 1981, №8).**

Onun əsərləri bir çox ədəbi mükafatlar, o cümlədən SSRİ Yazıçılar İttifaqının, "Drujba narodov" və "Smena" jurnallarının (iki dəfə), "Literaturnaya qazeta"-nın (iki dəfə), "Nedelya" həf təliyinin və digər mətbuat orqanlarının "İlin ən yaxşı əsəri" mükafatlarını almış, Moskvada nəşr olunmuş "Əncir ağacı" adlı povest və hekayələr kitabı keçmiş SSRİ-nin ən nüfuzlu mükafatlarından biri – Lenin komsomolu mükafatı, **"Memar Sinan"** Universitetinin (İstanbul), Fateh Universitetinin (İstanbul) mükafatları, eləcə də ulu öndər Heydər Əliyevin müvafiq sərəncamı ilə **"İstiqlal",** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə isə **"Şərəf"** ordeni ilə təltif edilmişdir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Elçin keçmiş ümumsovet ədəbi prosesində həm yazıçı, həm də tənqidçi kimi ən fəal surətdə iştirak edən nüfuzlu qələm sahibidir. Onun yalnız elə **"Literaturnaya qazeta"**da dərc edilmiş onlarla məqalələrini, **"Voprosı literaturı", "Literaturnoye obozreniye"** kimi jurnallardakı nəzəri çıxışlarını xatırlamaq kifayətdir.

Elçinin üç romanı – **"Mahmud və Məryəm", "Ağ dəvə" və "Ölüm hökmü" –** yalnız milli romançılığımızın yox, ümumiyyətlə, Azərbaycan ədəbiyyatının ciddi və əhəmiyyətli nailiyyətləri hesab olunur və onlar bədii-estetik səviyyələri, qaldırdıqları sosial-ictimai problemlərin dərinliyi baxımından keçmiş sovet ədəbiyyatında yaranmış ən mükəmməl romanlar sırasındadırlar.

Misal üçün, **"Ölüm hökmü"** romanı təxminən 60 illik bir dövrün bədii salnaməsidir. Yazıçı həmin faciəvi və ziddiyyətli dövrlə bağlı həqiqətləri bütün kəskinliyi ilə demiş, sovet ictimai quruluşunun cəmiyyətə vurduğu mənəvi və maddi zərbələrin insan talelərinə təsirini dolğun bədii boyalarla ifadə etmişdir. Romanda həm 20-30-cu illərlə, həm də müasir dövrümüzlə bağlı faktoloji sənədlilik, bədii təxəyyül və obrazlarla özünün üzvi vəhdətini tapmışdır.

Elçinin dramaturgiyası, son illərdə qələmə aldığı komediyalar Azərbaycan komedioqrafiyasını keyfiyyətcə yeni bir mərhələyə qaldırmış və milli sənətimizdə bədii-estetik hadisə olaraq **"Elçin teatrı"nı yaratmışdır. Onun "Poçt şöbəsində xəyal", "Ah, Paris!.. Paris!..", "Mən sənin dayınam", "Dəlixanadan dəli qaçıb, yaxud mənim sevimli dəlim", "Mənim ərim dəlidir", "Qatil", "Şekspir"** və s. kimi pyesləri yalnız Azərbaycanın deyil, xarici ölkələrin, o cümlədən Türkiyənin ən böyük teatrlarında uğurla səhnəyə qoyulmuşdur.

Görkəmli tənqidçi Yaşar Qarayev yazırdı: ***"Elçin dramaturgiyamızda ilk dəfə olaraq xaosun, hərc-mərcliyin obrazını yaradır! Onların əsasında duran mənəvi-əxlaqi, ideoloji stereotiplərə, normativ düşüncə və rəftar tərzinə ən müasir, ayıq, oyaq ədəbi-estetik münasibət ifadə edir."***

Elçinin **"Tənqid və nəsr", "Klassik aşıq ədəbiyyatında "dünya" obrazı",** Üzeyir Hacıbəyovun publisistikasını tədqiq və təhlil edən **"Bəstəkarın vətəndaş sözü"** monoqrafiyaları, eləcə də Azərbaycanın böyük şəxsiyyətlərinə – Bülbülə həsr edilmiş **"Bül- bül",** Azərbaycan Demokratik Cümhuriyyətinin lideri Məmməd Əmin Rəsulzadənin həyat və yaradıcılığından bəhs edən **"Məmməd Əmin Rəsulzadə",** yazıçı, siyasi-ictimai xadim Nə- riman Nərimanovun yaradıcılığını və fəaliyyətini işıqlandıran **"Nəriman Nərimanov",** Cəfər Cabbarlının yaradıcılığını yeni aspektdən təhlil edən **"Sənətkar və şəxsiyyət"** monoqrafik oçerkləri və s. kimi elmi əsərləri Azərbaycan ədəbiyyatşünaslıq elminin son onillərdə əldə etdiyi nailiyyətlərin parlaq nümunələridir.

Onun son illərdə çap etdirdiyi son dərəcə orijinal **"Ədəbi düşüncələr"**i böyük marağa səbəb olmuş və həm oxucular, həm də ədəbi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir.

Elçinin ədəbi fəaliyyətində tərcümə də əhəmiyyətli yer tutur. Onun klassik yapon poeziyasından tərcümə etdiyi **"Nərgizin bircə ləçəyi",** qərb yazıçılarının hekayələrindən ibarət **"Necə oldu ki, Pyer Duş məşhurlaşdı"** kitabları, Molyerin **"Skapenin kələkləri"** və **"Jorj Danden, yaxud aldanmış ər"** komediyaları və s. oxucular və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır.

Elçinin əsərləri rus, ingilis, fransız, alman, ispan, türk, macar, bolqar, ərəb, rumın, fars, çex, polyak, xorvat, gürcü, moldav, türkmən, özbək, qazax, tacik, serb və s. dillərə tərcümə edil mişdir. Yalnız elə bu faktı qeyd edək ki, Elçinin qardaş Türkiyədə 18 kitabı nəşr olunmuşdur.

Elçin bu gün ədəbi-mədəni mühitin formalaşmasında böyük rolu olan hörmətli və nüfuzlu şəxsiyyətlərdən biridir. Onun həm dövlətçiliklə, həm də bədii yaradıcılıqla bağlı fəaliyyəti bir-birini ahəngdar şəkildə tamamlamışdır.

Elçin hazırda yaradıcılığının ən dolğun çağını yaşayır və biz inanırıq ki, o, yeni-yeni əsərləri ilə ədəbiyyat xəzinəmizi daha da zənginləşdirəcəkdir.

**Bəybala Ələsgərov,**
**tarix elmləri doktoru**

# Arıçılığın inkişafına dəstək məqsədilə növbəti layihənin icrasına başlanılıb

3 mart 2023-cü il tarixində "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) təşkilatçılığı və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək məqsədilə növbəti layihənin icrasına başlanılıb.



Artıq ikinci ildir ki, təşkil edilən layihə çərçivəsində Daşkəsən rayonunun Çovdar, Quşçu, Bayan kəndləri və Şadax adlanan ərazisində yaşayan bir qrup kiçik arıçılıq təsərrüfatı sahibi ilə Gəncə şəhər Gənclər Evində görüş keçirilib. "AzerGold" QSC-nin müşaviri İlqar Cəlilov, KOBİA-nın Gəncə-Qazax regionu üzrə koordinatoru Anar Əliyev, həmçinin regional strukturların nümayəndələrinin iştirak etdiyi görüşün əsas məqsədi kənd arıçılarını bir araya gətirərək mövcud imkanlar və fermerlərin layihədən yararlanması imkanlarını müəyyənləşdirməkdir.

Tədbirdə arıçılıq fəaliyyəti zamanı təsərrüfat sahiblərinin qarşılaşdıqları çətinliklər və onların aradan qaldırılması yolları müzakirə edilib, təşəbbüslərlə bağlı fikir mübadiləsi aparılaraq, təkliflər qeydə alınıb.

# Rumıniya, Çexiya, Latviya, Litva və İordaniyaya sürtkü yağları ixrac edilir

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti "Alco" MMC tərəfindən bir sıra ölkələrə sürtkü yağlarının ixracına başlanılıb.




İZİA-dan bildirilib ki, şirkət tərəfindən ilk dəfə olaraq Rumıniya, Çexiya, Latviya, Litva və İordaniyaya sürtkü yağları ixrac edilib. Bu ölkələrə il ərzində 10 min tondan çox məhsul göndərilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkının rezidenti "ALCO" MMC 150 növdən çox sürtkü yağının istehsalını həyata keçirir. İstehsal olunan məhsullar daxili bazara satılmaqla yanaşı, dünyanın 30-dan çox ölkəsinə "Made in Azerbaijan" brendi adı ilə ixrac edilir.

# Qazaxıstandan buğda idxalı 2 dəfədən çox artıb



Azərbaycan 2022-ci ilin iyul-dekabr aylarında Qazaxıstandan 169,9 min ton buğda idxal edib. Məlumata görə, bu, 2021-ci ilin eyni dövrü ilə müqayisədə 2,2 dəfə çoxdur.

Hesabat dövründə Qazaxıstandan ən çox buğdanı Özbəkistan (1 milyon 586,7 min ton; illik müqayisədə 17,8% çox) idxal edib. Onu Tacikistan (624,1 min ton; 11,3% çox), Əfqanıstan (426,5 min ton; 74,2% çox), Azərbaycan (169,9 min ton; 2,2 dəfə çox) və Türkmənistan (143,5 min ton; 31% az) izləyib. Beləliklə Azərbaycan Qazaxıstandan buğda idxal edən ölkələr arasında ilk 5-likdə qərarlaşıb.

Ümumilikdə bu mövsümdə Qazaxıstanın buğda ixracı illik müqayisədə 7% artaraq 3,2 milyon tona çatıb və son 4 mövsümün rekord göstəricisi qeydə alınıb.

# FAO Ağalıda layihə icra edəcək

"BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) Zəngilan rayonunun Ağalı kəndinə köçən fermerlərin bilik və bacarıqlarının artırılması üçün layihə icra edəcək". Bunu açıqlamasında FAO-nun Azərbaycandakı nümayəndəsinin köməkçisi Bariz Mehdiyev bildirib.

"Artıq layihə təsdiq edilib və hökumətə təqdim olunub, bu yaxınlarda icrasına başlanılması gözlənilir. 2 illik layihə FAO-nun Texniki Yardım Proqramı çərçivəsində, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Xidmət Agentliyi ilə birgə icra ediləcək. Ondan 300-ə yaxın fermer (benefisiar) bəhrələnəcək. Son 30 ildə kənd təsərrüfatında istifadə edilən texnologiyalar inkişaf edib. Layihə çərçivəsində pilot suvarma sistemlərinin nümayişi və tətbiqi nəzərdə tutulur", - deyə o qeyd edib.



## Qarabağın görkəmli simaları

# Sayalı Tağıyeva (1920-2013)



**Görkəmli elm xadimi, Azərbaycan Tibb Universitetinin professoru Sayalı Abdulla qızı Tağıyeva 1920-ci il mayın 2-də Qarabağın dilbər güşəsi olan Şuşada dünyaya göz açıb.**

İkinci Dünya müharibəsinin odlu-alovlu günlərində Azərbaycan Tibb İnstitutunu bitirən Sayalı xanım bir müddət Bakıdakı 3 saylı poliklinikada həkim işləmiş, bir il sonra isə ömrünü əbədi olaraq Azərbaycan Tibb Universitetinə bağlamışdır. Namizədlik, sonra isə doktorluq dissertasiyası müdafiə edən Sayalı Tağıyeva 70 ilədək həmin institutda çalışmış, adi ordinatorluqdan professor, kafedra müdiri vəzifəsinə qədər yüksəlmişdir.

**Professor S.A.Tağıyeva 12 il (1980-1992-ci illərdə) ərzində Azərbaycan Dövlət Tibb İnstitutunun Pediatriya fakültəsinin daxili xəstəliklər kafedrasının müdiri vəzifəsində çalışmış, bu ali tibb təhsili ocağında yüksəkixtisaslı tibb kadrlarının, ölkəmiz üçün bacarıqlı səhiyyə mütəxəssislərinin hazırlanmasında böyük xidmətlər göstərməsi də ona layiqli nüfuz, hörmət və rəğbət qazandırmışdır.**

Görkəmli alimin uzun illər Azərbaycan Tibb Universitetinin və onun nəzdində fəaliyyət göstərən pediatriya fakültəsinin elmi şuralarının, ATU-nun və Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun dissertasiya şuralarının, Mərkəzi Pediatrik Şuranın üzvü olması Bakıda və Azərbaycanın rayonlarında digər elm, təhsil və müalicə-profilaktika ocaqlarında da səhiyyə işinin yüksək səviyyədə təşkilində fəallıq göstərməsini sübut edən amillərdəndir.

150-yə qədər elmi əsərin, sanballı monoqrafiya, dərslik və dərs vəsaitinin, məqalə və tezislərin müəllifi olan S.Tağıyevanın rəhbərliyi və yaxından köməyi ilə 10 tibb mütəxəssisi doktorluq və namizədlik dissertasiyası müdafiə etmişdir.**Tibb Universitetində uzun müddət kafedra müdiri işləyən Sayalı xanım elmi şuraların və dissertasiya şurasının üzvü olmuşdur, Tibb elminə həsr olunmuş bir sıra beynəlxalq qurultaylarda, simpozium, konfrans və konqreslərdə respublikamızı ləyaqətlə təmsil etmiş, maraqlı elmi çıxışları ilə fərqlənmişdir.** Sayalı Tağıyeva ölümündən bir az əvvəl Prezident İlham Əliyevin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Professor S.A.Tağıyeva həmçinin "Səhiyyə əlaçısı" döş nişanına , "Əmək veteranı" və "Sosializm yarışının qalibi" nişanına, dəfələrlə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və Azərbaycan Tibb Universitetinin Fəxri Fərmanlarına, təşəkkür və mükafatlarına layiq görülmüş, ATU-nun "Sevil Qadınlar Cəmiyyəti"nin üzvü olmuşdur.

**Sayalı xanım Tağıyeva 2013-cü ildə Bakıda vəfat etmişdir.**

# "Qaraciyər nəqli olan qadınlarda reproduktiv funksiyanın öyrənilməsi və idarə olunması vacibdir"



**"Qaraciyər nəqli olan qadınlarda reproduktiv funksiyanın öyrənilməsi və idarə olunması vacibdir"**

Dünyada qaraciyər çatışmazlığına səbəb olan xroniki xəstəliklərin sayı ildən-ilə artmaqdadır. Qaraciyər nəqli hər hansı bir və ya iki üzvün funksiyasının tamamilə pozulması və sıradan çıxması zamanı qəbul olunmuş yeganə müalicə üsuludur. Aparılan tədqiqatlara görə, son 3 ildə Türkiyədə böyrək köçürülmüş qadınların 37%-ni, qaraciyər nəqli olanların 41%-ni, Amerikada isə 60%-ini reproduktiv yaşlı qadınlar təşkil edir. Mərkəzi Gömrük Hospitalının Mama-ginekologiya şöbəsinin rəisi, gömrük tibb xidməti polkovnik-leytenantı, t.ü.f.d., mama-ginekoloq Təranə Bayramova qaraciyər nəqli olan qadınlarda reproduktiv funksiyanın öyrənilməsi və idarə olunması barədə suallarımızı cavablandırıb.

**- Təranə həkim, qaraciyər nəqlindən sonra hamiləlik mümkündürmü?**

*- Tibb tarixində qaraciyər nəqlindən sonra ilk uğurlu hamiləlik haqqında 1978-ci ildə məlumat verilmişdir. 40 həftə 5 günlük hamiləlik nəticəsində çəkisi 2400 qram olan uşaq doğulmuşdur. Ana və uşaq sağlam olmuş, doğuşsonrası bir illik müşahidə zamanı ağırlaşmalar izlənməmişdir.*

**- Qaraciyər köçürülməsindən sonra uyğun hamiləlik vaxtı necə təyin edilir?**

*- Qaraciyər transplantasiyasından sonra hamiləlik üçün ən uyğun vaxt qaraciyər funksiyasının normallaşdığı müddət və bu dövr ərzində fəsadlaşma olmaması şərti ilə nizamlı dərman müalicəsindən sonrakı dövr uyğun hesab edilir. Əvvəlki illərdə orqan rəddetməsinin baş verməməsi, nəql olunan orqan hissəsinin funksiyasının sabit və düzgün olması, dölün inkişafına təsir göstərən kəskin infeksiyalaşmanın görülmədiyi təqdirdə hamiləliyin baş verməsi mümkündür. Qaraciyər nəqlindən 2 il sonra hamilə qalmaq uyğundur.*

**- Qaraciyər nəqli olmuş hamilələrdə ana və dölə bağlı hansı ağırlaşmalar ola bilər?**

*- Anaya bağlı ağırlaşmalara arterial təzyiqin yüksəlməsi, şəkərli diabet, qanda laxtalanmanın pozulması, qanazlığı, infeksiya, nəql olan orqan hissəsinin sıradan çıxması, öd yollarında durğunluq, böyrəklərin iltihabı aid edilir. Dölə bağlı ağırlaşmalara isə hamiləliyin ilkin həftələrində dölün inkişafdan qalması, bətndaxili inkişafın ləngiməsi və hipoksiyası, immun sisteminin çökməsi, anadangəlmə infeksiya (toxoplazmoz, HBV, HCV, CMV) və autoimmun xəstəlik risklərinin yüksək olması aiddir.*



**- Hamiləlikdə immunosupressiv dərmanlardan istifadə oluna bilərmi?**

*- Hamiləlik planlanarkən transplantasiya komandası ilə immunosupressiv dərman, ana, döl və nəql olunan orqan hissəsi üçün fayda və zərərlər müzakirə edilməli və ən etibarlı müalicə sxemi seçilməli və immunosupressiv müalicə davam etdirilməlidir.*

**- Orqan transplantasiyası olan qadınlarda zahılıq və südvermə dövrü necə idarə olunmalıdır?**

*- Ana və gələcək körpənin sağlamlığı üçün nəql edilən orqan hissəsinin funksiyası təqib edilməli, qanda vaxtaşırı immunosupressiv vasitələrin səviyyəsi təyin olunmadır. Takrolimusun ana südünə çox az keçdiyini nəzərə alaraq, südverən analara təyin edilə bilər. Südvermə dövründə immunosupressiv dərmanların körpələrin mental və fiziki inkişafına təsir etməməsi müəyyən olunmuşdur.*

**- Qaraciyər nəqlindən əvvəl və sonra hansı tövsiyələr verilə bilər?**

*- Nəqldən əvvəl qadın alıcılar mütləq ginekoloji müayinə olunmalı, pap testi alınmalı və nəticəsi dəyərləndirilməli, problemlər varsa, nəqlə qədər aradan qaldırılmalıdır. Nəqldən 3 ay sonra yenidən ginekoloji baxış olmalı, alıcı qadın hamiləlik, qorunma üsulları, verilməsi mütləq olan təhlillər barədə məlumatlandırılmalıdır.*

***- Təranə xanım, tibbin yeni və vacib sahəsi olan orqan transplantasiyasına alıcıların hazırlanması sizin hospitalda necə təşkil olunmuşdur?***

*- Mərkəzi Gömrük Hospitalında tibb üzrə fəlsəfə doktoru Dr.Mircalal Kazıminin rəhbərliyi ilə Transplantasiya şöbəsi fəaliyyət göstərir. Xəstələrin nəqldən öncə və sonra müayinə olunması üçün müxtəlif profillərdən olan mütəxəssis həkimlər cəlb olunmuşdur. Transplantasiya mükəmməl komanda işidir. Şöbəyə müraciət edən və orqan köçürülməsi ehtiyacı olan qadın pasiyentlər nəqldən əvvəl və sonra Mama-ginekologiya şöbəsinin həkimləri (tibb üzrə fəlsəfə doktoru, Dr. Təranə Bayramovanın rəhbərliyi ilə gənc həkimlərdən Leyla Qaçaylı, rezidentlərdən Güllüxanım Rəhimova, Səidə Şindiyeva) tərəfindən müayinə edilərək, ginekoloji patologiyalar konservativ və cərrahi yolla aradan qaldırılır. 2018-ci ildən bu günə qədər xəstələrdən əldə olunan nəticələr toplanaraq, elmi tədqiqat işləri aparılmaqdadır. Laborator-instrumental və klinik xəstə göstəriciləri əsasında 2 metodik vəsait, tezis və elmi-populyar məqalələr hazırlanaraq yerli və xarici jurnallarda çap olunmuşdur.*

**Müsahibəni apardı:**
**Dilara Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının**
**PR mütəxəssisi**




***Bu günlərdə Azərbaycanın görkəmli din xadimi, tanınmış ilahiyyatçı alimi Hacı Şahinin vaxtsız ölüm xəbəri hər kəsi dərindən sarsıtdı. Yüzlərlə insan bu acı xəbərdən üzüntü içində onu son mənzilə yola saldı...***

Hacı Şahin (Şahin Hüseyn oğlu Həsənli) 1974-cü ildə Bakıda anadan olub. 1981-ci ildə Bakı şəhər 189 saylı orta məktəbin rus bölməsinə daxil olub, 1991-ci ildə həmin məktəbi bitirib. 1991-ci ildə Azərbaycan Texniki Universitetinin Maşınqayırma fakültəsinə daxil olub. 1995-1997-ci illərdə hərbi xidmətdə olub. 1999-cu ildə universiteti bitirib. 2001-2004-cü illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində ikinci ali təhsil alıb. 2007-ci ildə "Mənəvi Dünya" Milli-Mənəvi Dəyərlərimizin Təbliği İctimai Birliyini təsis etmiş, bu quruma rəhbərlik etmişdir.

***2013-cü ildə "Məşədi Dadaş" məscidinə axund, 2014-cü ildə isə Qafqaz Müsəlmanları İdarəsinin Nəsimi rayonu üzrə səlahiyyətli nümayəndəsi təyin olunmuşdur.***

Hacı Şahin ədəbi bilikləri, geniş mütaliəsi olan nadir din xadimlərimizdən biri idi. O, Seyid Əzim Şirvanini, Mirzə Fətəli Axundovu, Mirzə Cəlili, eləcə də müasir ədəbiyyatı izləyir, həm də dərindən mütaliə edirdi. "Xoşbəxt ailə modeli", "Haradan başlamalı", "Yaradılışın hədəfi" adlı kitabların müəllifi idi.

Hacı Şahin uzun illər Həcc karvanına rəhbərlik edib və Həcc zəvvarlarına xidmət göstərib.

Ömrünün son günlərində "Mənəvi Dünya" Milli-Mənəvi Dəyərlərimizin Təbliği İctimai Birliyinin təsisçisi və sədri, Qafqaz Müsəlmanları İdarəsinin Nəsimi rayonu üzrə nümayəndəsi kimi fəaliyyət göstərib.

Hacı Şahin 2 mart 2023-cü ildə ürəktutmasından dünyasını dəyişib. Müsahibələrinin birində ölüm haqqında demişdi: ***"Ölümdən qorxmuram, - desəm, böyük bir iddia olar. Ancaq onu deyim ki, ölümdən qorxmaq lazım deyil. Ölüm insan üçün müəmmalıdır deyə insan bilmədiyi şeydən çəkinib qorxur. Ölümü heç kimə zəng vurub başa salmırlar, demirlər. Dünyadan kimsə köçəndə geri qayıtmır. Ancaq ölüm son deyil. İnsan ölümün əbədiyyətə körpü olduğunu bilməlidir. Belə olsa, adam ölümdən qorxmaz. Ölümü acılaşdıran bizim əməllərimizdir. İnsanlar arasında yayılan ölüm qorxusu, düzgün deyil. İnsanlar ölümü tanısalar və ona hazır olsalar, ondan qorxmazlar".***

Sanki ürəyinə dammışdı. Ölümdən qorxmayan, ölümün əbədiyyətə bir körpü olduğunu deyən Hacı Şahin votsapda son statusunu yazaraq, Ramiz Rövşənin şeirlərindən bir bənd paylaşaraq ürəkləri sızlatdı.

* * * *

***Mən bu ağlamalı, mən bu gülməli***
***Dünyaya ağlayıb-gülməyə gəldim.***
***Bir dünya tapılmaz bundan ölməli,***
***Mən də tamahlanıb ölməyə gəldim.***

* * * *

***Və bu, onun son statusu oldu..***

Biz Hacı Şahinin simasında çox dəyərli, gözəl bir din xadimini, mömin qardaşımızı itirdik. Hacı Şahinin yeri hər zaman görünəcək, xatirəsi onu sevənlərin qəlbində daim yaşayacaq.

**Allah rəhmət eləsin!**
**Məkanı cənnət olsun!**

**"İQTİSADİYYAT"**




**Azəri Light və Brent markalı neftin bir barelinin 1 – 7 Mart tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə ailəsi ilə birlikdə Qazılar Şurasının üzvü,
Məşədi Dadaş məscidinin imamı
**ŞAHİN HÜSEYN OĞLU HƏSƏNLİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik Ziyad Səmədzadə ailəsi ilə birlikdə Azərbaycan Respublikasının
Xalq artisti Alim Qasımova atası
**HƏMZƏ QASIMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**